# III BÖLMƏ.
# KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI VƏ QİDA TƏHLÜKƏSİZLİYİ PROBLEMLƏRİ

**UOT: 33.332**

***Eldar Əli oğlu QULİYEV***
***dosent, i.f.d., Aqrar Tədqiqatlar Mərkəzi***
***E-mail: eldar.quliyev@atm.gov.az***
***10.30546/1.72.2024.5***

## KƏND TƏSƏRRÜFATININ VƏ KƏNDİN İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi** – müasir şəraitdə kənd təsərrüfatının innovasiya texnologiyaları əsasında inkişaf etdirilməsi, kənd yerlərinin sosial-iqtisadi inkişafının təmin edilməsi, kənd yerlərinin inkişafına fərdi yanaşma metodologiyasından istifadənin tətbiq edilməsi istiqamətində yeni bilik və təcrübənin tətbiqi vasitəsilə kənd təsərrüfatının və kənd yerlərinin inkişafının səmərəli təşkili formalarına dair əsaslandırılmış təklif və tövsiyələr işləyib hazırlamaqdır.

**Tədqiqatın metodologiyası** – tədqiqat prosesində sistemli yanaşma, ümumiləşdirmə və müqayisə, təhlil və qruplaşdırma metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – tədqiqatın əsas nəticələri və irəli sürülən təkliflər kənd təsərrüfatının və kənd yerlərinin qarşılıqlı inkişafının təmin edilməsi istiqamətinə dair layihələrin işlənib hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – kənd təsərrüfatının və kənd yerlərinin davamlı inkişafının təmin edilməsi ölkədə ümumi iqtisadi artımın təmin olunmasının başlıca amili kimi qiymətləndirilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – milli iqtisadiyyatın əsas sahələrindən biri olan kənd təsərrüfatının və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında mühüm əhəmiyyət kəsb edən kənd yerlərinin inkişafının regional inkişaf tələblərinə uyğun olaraq təşkil edilməsi məsələləri ilk dəfə tədqiq edilmişdir.

***Açar sözlər: kənd təsərrüfatı, kənd yerləri, iqtisadiyyat, sosial, infrastruktur, inkişaf, istehsal.***

### *Giriş*

Kənd təsərrüfatı ilk növbədə insanların ərzaq məhsullarına olan tələbatını ödəyən əsas və yeganə mənbə olduğundan çox mühüm əhəmiyyətə malikdir və hər bir ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində xüsusi rolunun olduğu təkzibedilməzdir. Kənd təsərrüfatının ikinci mühüm əhəmiyyəti yenə insanların ehtiyaclarının ödənilməsi üçün tələb olunan müxtəlif sənaye məhsullarının istehsalında tələb olunan xammal bazası rolunda olmasıdır. Kənd təsərrüfatı məhsullarının emalı sahələrinin və eyni zamanda, müxtəlif sənaye sahələri üzrə aqrar istiqamətdə çoxçeşidli məhsul istehsalı sahələrinin inkişafı isə kənd təsərrüfatında çalışan insanların həyat şəraitinin yaxşılaşmasında və kənd təsərrüfatının gəlirli bir sahəyə çevrilməsində mühüm rol oynayır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə kənd əhalisinin əsas məşğul olduğu sahə kənd təsərrüfatı olduğundan, dünya əhalisinin demək olar ki, yarısı kənd təsərrüfatında çalışır və ölkələrin inkişaf səviyyəsindən asılı olaraq bu nisbət dəyişir. İnkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrdən fərqli olaraq məşğul əhalinin sənaye sahələrinin inkişafından asılı olaraq 20%-dən yuxarı hissəsi kənd təsərrüfatında çalışır.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən son beş ildə Azərbaycanda əmək qabiliyyətli əhalinin orta hesabla 36%-ə qədəri, o cümlədən rayonlarda məşğul əhalinin 50-

60%-i kənd təsərrüfatında çalışır. Keçən 28 illik islahatlar dövründə Azərbaycan hökuməti həmişə ölkə əhalisinin ərzaq probleminin həllini əsas prioritet məsələ hesab etmiş və bu istiqamətdə bir sıra səmərəli aqrar siyasət həyata keçirmişdir.

Müstəqilliyin ilk illərindən aqrar sahənin inkişafı ümummilli prioritetlərdən biri kimi qəbul edilərək bu sahədə aparılan köklü islahatlar fonunda müxtəlif dövlət proqramları çərçivəsində kənd təsərrüfatı istehsalına və kəndlərin sosial inkişafına dövlət dəstəyi göstərilməsinə baxmayaraq, kənd yerlərinin inkişaf səviyyəsi elə də yüksək deyildir, daha doğrusu, şəhərlərin inkişaf səviyyəsindən çox geri qalır. İstənilən islahat üçün ilkin şərt aqrar sahədə sosial-iqtisadi proseslərin ümumi inkişaf istiqamətlərinin düzgün dərk edilməsi, kənd yerlərinin gələcək inkişafı tendensiyalarını müəyyən etmək, aqrar sahənin və eləcə də aqrar emal sənayesinin inkişafı üçün regional proqramlar, layihələr hazırlamaq və həyata keçirmək üçün ilk növbədə regionlara, o cümlədən kəndlərə fərdi yanaşma xüsusiyyətləri, dəyişiklik dinamikası və yeni hadisələr haqqında nəzəri və empirik biliklərin aydınlaşması və yenilənməsi mütləqdir.

***Kənd təsərrüfatının və kəndin inkişafının mövcud vəziyyəti***

Aparılan aqrar islahatların ilk illərində Azərbaycan Respublikasının Prezidenti, ulu öndər H.Əliyevin 2 mart 2001-ci il tarixli 640 №-li Sərəncamı ilə “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi proqramı” təsdiq edilmişdir. Kənd təsərrüfatının inkişafı və kənd əhalisinin gəlirlərinin artırılması ilə bağlı həyata keçirilən çoxsaylı Dövlət Proqramlarının tətbiqi nəticəsində kənd təsərrüfatı məhsulları istehsalı əvvəlki illərlə müqayisədə xeyli artmışdır. Son illərdə kənd təsərrüfatına dövlət dəstəyinin artırılması və təkmilləşdirilməsi ölkədə əsas bitkiçilik məhsulları istehsalının artmasına imkan verir. Belə ki, 2022-ci ildə 2912.6 min ton dənli və dənli-paxlalı bitkilər, dən üçün qarğıdalı 248.71 min ton və ya 2021-ci illə müqayisədə 6,0 faiz az, 1074,3 min ton (1,2 faiz çox) kartof, 1823,3 min ton (0,4 faiz çox) tərəvəz, 469,3 min ton (2,0 faiz çox) bostan məhsulları, 1253,1 min ton (4,0 faiz çox) meyvə və giləmeyvə, 212,6 min ton (1,3 faiz çox) üzüm, 1,0 min ton (15,0 faiz az) yaşıl çay yarpağı, 222,7 min ton (15,3 faiz çox) şəkər çuğunduru, 321,8 min ton (12,1 faiz çox) pambıq, 29,4 min ton (13,8 faiz çox) günəbaxan və 5,1 min ton (21,0 faiz az) tütün yığılmışdır. 2021-ci illə müqayisədə 2022-ci ildə diri çəkidə ət istehsalı 3,0 faiz artaraq 628,0 min ton, süd istehsalı 1,9 faiz artaraq 2264,7 min ton, yumurta istehsalı 9,8 faiz artaraq 2018,1 milyon ədəd, yun istehsalı 2,3 faiz azalaraq 15,8 min ton, barama istehsalı 31,4 faiz azalaraq 341,4 ton olmuşdur. 2021-ci ilə nisbətən kənd təsərrüfatının ümumi məhsulu 3,4 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 3,4 faiz, bitkiçilik məhsulları istehsalı 3,3 faiz artmışdır [3].

Azərbaycan iqtisadiyyatının aqrar sahəsində baş verən dəyişikliklər əsasən kənd yerlərinin sosial strukturunda, kəndlərin ümumi görünüşündə, kənd təsərrüfatına yanaşmalarda dəyişikliklərlə müşayiət olunur. Torpaqların xüsusi mülkiyyətə verilməsi, yeni müxtəlif təsərrüfat formalarının yaradılması kənd yerlərində iqtisadi fəaliyyət şəraitini dəyişdirdi ki, bu da əhalinin məşğulluq və gəlir problemini xeyli çətinləşdirdi. Dünya iqtisadiyyatına inteqrasiya, ölkəmizdə ticarət və müxtəlif xidmət sahələrinin inkişafı əhalinin çalışdıqları sahələrə uyğun olaraq gəlirləri arasındakı fərqi daha da dərinləşdirdi. Hazırda kənd yerlərində formalaşan iqtisadi sistem kənd təsərrüfatı sahəsində çalışanların xüsusilə məhsul istehsalı ilə məşğul olan xırda, kiçik təsərrüfatların əldə etdikləri gəlirlərin iqtisadiyyatın digər sahələri ilə müqayisədə ən aşağı səviyyədə qalmaqda davam etməsinə səbəb olur. Kənd yerlərində yoxsulluq və işsizliyin yüksək səviyyəsi, eləcə də kəndin sosial sahəsində mövcud olan mənfi meyillər ciddi narahatlıq doğurur. Bu vəziyyət kəndin demoqrafik vəziyyətinə də təsir edir. Artıq kənd yerlərində ailələrdə doğulan uşaqların sayı şəhər yerlərində doğulan uşaqların sayı ilə eynilik təşkil edir. Azərbaycanda 2010-cu ildə diri doğulanların sayı 165643 nəfər təşkil edirdisə 2022-ci ildə bu göstərici 122846 nəfər, kənd yerlərində isə müvafiq olaraq 83891 və 63177 nəfər olmuşdur. Yəni demoqrafik vəziyyət pisləşməkdə davam edir, rayon mərkəzlərindən uzaq məsafədə yerləşən kənd yerlərində sosial infrastruktur müəssisələri şəbəkəsi daralır, bir çox kənd yerlərində isə, demək olar ki, yox səviyyəsindədir. Kənd əhalisinin həyat səviyyəsinin aşağı düşməsi kənd yerlərinin sabit sosial-iqtisadi inkişafının fundamental əsası kimi əmək ehtiyatlarının təkrar istehsalına mənfi təsir göstərir. Qeyd edək ki, ölkənin iqtisadi

inkişafının, ərzaq təhlükəsizliyinin təmin edilməsinin həlledici şərti və kənd təsərrüfatının rəqabətqabiliyyətli inkişafının əsası kənd yerlərində insan kapitalının inkişafıdır ki, bu da yalnız yüksək yaşayış səviyyəsi ilə təmin edilə bilər.

Kənd təsərrüfatının mövcud iqtisadi vəziyyəti və onun kəndin inkişafına təsiri hazırda təqdirəlayiq səviyyədə deyil. Bunun bir neçə səbəbi var: sovet iqtisadi sistemində heç vaxt məlum olmayan və gözlənilməyən beynəlxalq rəqabətqabiliyyətlilik çərçivəsinə uyğun gələn kənd təsərrüfatı siyasəti və ölkəmizdə aqrar-ərzaq sahəsinə xas olan çoxsaylı problemlərin olması. Qeyd edək ki, bir çox problemlərin çox uzun müddətdir ki, mövcud olması və heç vaxt ciddi şəkildə müzakirə olunmadan həlli yolunun müəyyən edilməsidirsə, digərləri isə beynəlxalq dəyişikliklərin birbaşa təsirinin nəticəsidir.

Aqrar islahatların ilk illərindən başlayaraq kənd təsərrüfatı məhsullarının aşağı qiymətləri, artan istehsal xərcləri, istehlakçının ərzaq məhsulları üçün ödədiyi məbləğin dəyər zəncirinin subyektləri arasında qeyri-bərabər bölgüsü kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən kiçik və orta təsərrüfatların və eləcə də kənd təsərrüfatı müəssisələrinin orta və ya yüksək gəlir əldə etmə imkanlarına mənfi təsir göstərən açıq tendensiyalardır.

Qeyd edək ki, ixtisaslaşmış kənd təsərrüfatı və onun ətrafında olan fəaliyyətlərin iqtisadi sistemlərə uyğun inkişafı və yenidən işə salınması, kənd yerlərində yeni məşğulluq imkanları, eyni zamanda daha çox kənd yerlərində yaşayan əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün imkanlar yaradır. Aparılan tədqiqat və araşdırmalarımız göstərir ki, düşünülmüş şəkildə kənd yerləri və kənd təsərrüfatının inkişafı kənardan sistemli şəkildə təşkil edilə və idarə oluna bilməz, lakin onun resurslarının qiymətləndirilməsi yolu ilə yerli aktorların cəlb edilməsinin nəticəsi müsbət ola bilər. Yəni, hər hansı bir kəndin torpaqları kənardan istifadə olunduqda, o fəaliyyətin kəndin inkişafına heç bir müsbət təsiri olmayacaq, əksinə, kənd yerlərində yoxsulluğu artıracaq və kəndlərin boşalmasına səbəb olacaq. Kənd yerlərinin inkişafının təmin edilməsinin planlanması isə aktiv kənd sakinlərinin iştirakı ilə hazırlandıqda daha müsbət nəticələr alınır. Eyni zamanda, yerli kənd əhalisinin (aktorların) fəaliyyətinin aktivləşdirilməsi ətraf mühitin qorunmasına, torpaqların münbitliyinin təmin edilməsinə və kənd yerlərinin inkişafına müsbət təsir edə bilər. Kənd yerlərinin ümumi ərazisindən, əhalinin sayından asılı olaraq kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı fəaliyyətlərinin ümumi "keyfiyyətindən" faydalanan bir-biri ilə sıx bağlı olan çoxşaxəli kənd təsərrüfatı və qeyri-kənd təsərrüfatı fəaliyyətlərinin birgə mövcudluğu ilə xarakterizə olunan bir iqtisadi sistemin formalaşmasına xüsusi diqqət yetirilməsi kənd yerlərinin və kənd təsərrüfatının qarşılıqlı inkişafını təmin edir.

***Kənd təsərrüfatının və kəndin inkişafının nəzəri məsələləri***

Aparılan aqrar islahatlardan sonra Azərbaycanın kənd təsərrüfatı istehsalında nisbətən kiçik istehsal miqyası, aşağı səmərəlilik və yüksək məsrəflərlə kiçik kəndli təsərrüfatları üstünlük təşkil edir. Gələcəkdə kənd təsərrüfatının mexanikləşməsi səviyyəsinin yüksəldilməsi kənd təsərrüfatının miqyası tendensiyasının güclənməsini şərtləndirir. Ümumiyyətlə, yeni əsrə qədəm qoyduqdan sonra aparılan aqrar islahatların təkmilləşdirilməsi, yeni yanaşmalar və kənd təsərrüfatının modelləşdirilməsi fonunda Azərbaycanın kənd təsərrüfatı aşağıdakı imkanlarla qarşılaşdı:

- milli iqtisadiyyatın davamlı və sağlam inkişafı kənd təsərrüfatının inkişafı üçün getdikcə daha rahat mühit yaradır və nəticədə kənd təsərrüfatı sənaye ilə bərabər inkişaf mərhələsinə qədəm qoydu;
- kənd təsərrüfatı məhsullarına bazar tələbi getdikcə güclənir. Bu, kənd təsərrüfatının inkişafında geniş inkişaf perspektivləri imkanı yaradır;
- dünya kənd təsərrüfatına inteqrasiya kənd təsərrüfatına xarici vəsaitlərin və qabaqcıl texnologiyaların daha geniş spektrdə tətbiqinə imkan verir;
- yerli və xarici istehsal amillərindən istifadə etməyə kömək edir və kənd təsərrüfatının modernləşdirilməsinin, istehsal avadanlığının və onların idarəetmə səviyyələrinin yüksəldilməsinə şərait yaradır;

- yerli ənənəvi kənd təsərrüfatının transformasiyasının sürətləndirilməsinə, müasir kənd təsərrüfatına çevrilmənin həyata keçirilməsinə, kənd təsərrüfatı məhsullarının keyfiyyətinin və kənd təsərrüfatının iqtisadi səmərələrinin hərtərəfli yaxşılaşdırılmasına şərait yaradır;
- yeni kənd təsərrüfatı elmi və texnoloji inqilabı kənd təsərrüfatının inkişafına güclü texniki dəstək verir.

Yuxarıda qeyd edilənlər əslində yaranan imkanlar olsa da, əldə edilən nəticələr yüksək deyildir, yəni yaranan imkanlardan səmərəli istifadə olunmur. Digər tərəfdən, kənd təsərrüfatının inkişafına müasir şəraitdə kəndin inkişafını təmin etmədən nail olmaq mümkünsüz görünür. Qeyd edək ki, Azərbaycanın regionları və eləcə də inzibatı rayonlarının hər birində kifayət qədər istifadə olunmamış təbii ehtiyatlar mövcuddur. Lakin, bu təbii ehtiyatlardan istifadə elə səviyyədə olmalıdır ki, gələcək nəsillərin də öz ehtiyaclarını ödəmək imkanlarına zərər gəlməsin. Bu təbii ehtiyatlardan səmərəli istifadə etməklə kənd yerlərinin inkişafını və ənənəvi olaraq kənd təsərrüfatının inkişafını təmin etmək mümkündür. Bununla belə, dünyada qlobal istehsal sahəsindəki dəyişikliklər və artan urbanizasiya kənd yerlərinin quruluşuna, infrastrukturuna və tələbinə təsir etməklə kəndin simasının yenidən formalaşmasına səbəb olur. Aparılan araşdırmalarımız göstərir ki, müasir bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatının inkişafı kəndin inkişafı ilə əlaqədardır. Kəndin inkişafı əsasən kənd turizminin genişlənməsi, təhsil və peşəkarlıq səviyyəsinin yüksəlməsi, daha doğrusu, modernləşməsi, sahibkarlıq fəaliyyətinin çoxsahəli genişlənməsi, fiziki və sosial infrastruktur sahələrinin inkişafı ilə bağlıdır. Onu da qeyd edək ki, kəndin inkişafı həm də yerli şəraitə uyğun olaraq inkişaf etdirilən iqtisadi inkişaf strategiyalarına uyğun olmaqla xarakterizə olunur. Müşahidələrimiz göstərir ki, şəhər yerləri arasında oxşar cəhətlər çox olsa da, kənd yerləri haqqında bunu demək olmur, onlar bir - birindən çox fərqlidir. Məsələn, yerləşdiyi ərazi, relyef, şəhərə yaxınlığı, əhalinin məşğulluq fəaliyyəti, istehsal istiqamətləri, sosial-iqtisadi baxışları və s. Məhz bu fərqliliklər kənd yerlərinin inkişafına fərqli və xüsusi yanaşmaları şərtləndirir.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə kənd təsərrüfatının inkişafı ilə bağlı kompleks yanaşmada kənd bölgələrinin inkişafı, kənd yerlərində əhalinin layiqli məşğulluğunun təmin edilməsi və həyat səviyyəsinin yaxşılaşdırılması məsələlərinin həlli də öz əksini tapmışdır [1, s. 135].

Bazar iqtisadiyyatı şəraitində inkişaf, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı siyasəti, əhalinin ekoloji təmiz məhsullarla təminatı və bu məhsullara artan tələbat kənd təsərrüfatının və kəndin hərtərəfli inkişafını şərtləndirir. Məhz bu baxımdan, kəndin və kənd təsərrüfatının inkişafı ilə yanaşı həm də kəndin davamlı sosial-iqtisadi və ekoloji sahələrinə bir konteksdən baxılması tələb olunur. Burada əsas şəhər iqtisadi sistemindən kənar inkişaf fəaliyyətlərinə diqqət yetirilməsi mütləqdir. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də “İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi” bölməsində “*Yüksək inkişaf üçün yalnız iqtisadi artım deyil, cəmiyyətin bütün üzvlərinin sosial rifahı mühüm amildir. İqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsi təmin edilməli, əməkhaqqının artımı əmək məhsuldarlığının artımı ilə uzlaşdırılması” göstərilmişdir* [2].

Qeyd edək ki, kənd təsərrüfatı kənd yerlərinin quruluşuna təsir edir və onun əsas iqtisadi fəaliyyət sahəsi olduğundan, hətta torpaqdan istifadə səviyyəsinə görə kənd yerlərinin inkişafında mühüm rol oynayır. Kənd təsərrüfatı məşğulluğa, regionlarda köməkçi biznes sahələrinə və ekoloji xidmətlərə dəstək verməklə kəndin inkişafına töhfə verir.

Məlum olduğu kimi Azərbaycan inkişaf etməkdə olan ölkələr qrupuna daxildir və bu inkişaf yolunda çoxlu çətinliklər mövcuddur. İnkişaf etməkdə olan ölkələrin şəhər əhalisindən fərqli olaraq kənd sakinləri bir çox problemlərlə üzləşir. Çünki, belə ölkələrdə inkişaf daha çox şəhər yerlərindən başlayır, sürətli urbanizasiya, istehsal texnologiyalarının geriliyi, sürətli inflyasiya prosesləri şəhərlə kənd arasında kəskin fərqlərin yaranmasına gətirib çıxarır. Kənd yerlərində həyat səviyyəsinin aşağı olması əsasən məhsuldar infrastrukturun olmaması, kənd təsərrüfatında

məhsuldarlığın aşağı olması, təbii fəlakətlərə qarşı həssaslıq, iqlim dəyişikliyi, bazarlara zəif çıxış, hökumət siyasətinin səmərəlilik səviyyəsinin aşağı olması, kənd təsərrüfatında fəaliyyət göstərən təsərrüfatların genişləndirilməsi imkanlarının məhdud olması, tətbiq edilən dövlət proqramlarında müəyyən edilmiş hədəflərə tam nail olmamaq, xəstəlik və zərərvericilərə qarşı mübarizənin zəif olması və s. kənd yerlərinin inkişafında ciddi maneələr yaradır. Azərbaycanda əhalinin gəlirlərinin formalaşması mənbələri cədvəl 1-də verilmişdir.

**Cədvəl 1**

**2021-2022-ci illərdə şəhər və kənd yerləri üzrə əhalinin gəlirləri**

| | **şəhər yerləri üzrə** | | | **kənd yerləri üzrə** | | |
|---|---|---|---|---|---|---|
| | **2021** | **2022** | **2022-ci il 2021-ci ilə nisbətən %-lə** | **2021** | **2022** | **2022-ci il 2021-ci ilə nisbətən %-lə** |
| Gəlirlər – cəmi | **311.13** | **339.98** | **109.3** | **288.74** | **312.73** | **108.3** |
| *o cümlədən:* | | | | | | |
| Muzdlu işlə əlaqədar əldə edilən gəlirlər | 137.92 | 157.33 | 114.1 | 75.06 | 84.04 | 112.0 |
| Özünüməşğulluqdan gəlirlər | 77.29 | 83.29 | 107.8 | 127.63 | 137.11 | 107.4 |
| ondan kənd təsərrüfatı məhsullarının istehsalından alınan gəlirlər | 6.47 | 6.74 | 104.2 | 65.29 | 69.15 | 105.9 |
| Mülkiyyətdən gəlirlər – cəmi | 1.46 | 1.56 | 106.8 | 0.77 | 0.81 | 105.2 |
| ondan əmlakın icarəyə verilməsindən gəlirlər | 0.96 | 1.01 | 105.2 | 0.55 | 0.58 | 105.5 |
| Alınmış cari transfertlər | 63.46 | 65.09 | 102.6 | 57.95 | 60.49 | 104.4 |
| pensiyalar | 56.72 | 57.52 | 101.4 | 46.09 | 47.50 | 103.1 |
| müavinət, təqaüd və digər sosial ödənişlər | 6.44 | 7.20 | 111.8 | 11.54 | 12.42 | 107.6 |
| natura şəklində daxilolmaların pul ifadəsində dəyəri | 0.30 | 0.37 | 123.3 | 0.32 | 0.57 | 178.1 |
| Digər gəlirlər | 31.00 | 32.71 | 105.5 | 27.33 | 30.28 | 110.8 |
| ölkə daxilində digər ailələrdən alınan vəsaitlər | 26.44 | 27.73 | 104.9 | 21.49 | 23.92 | 111.3 |
| ölkə xaricindən alınan vəsaitlər | 4.56 | 4.98 | 109.2 | 5.84 | 6.36 | 108.9 |

*Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Məlumatları, stat.gov.az.*

Cədvəl məlumatlarından göründüyü kimi, əhalinin gəlirləri 2021-ci ildə şəhər yerində kənd yerindən 7.8%, 2022-ci ildə isə 8.7% yüksək olmuşdur. 2022-ci ildə əvvəlki ilə nisbətən gəlirlər arasındakı fərq 0.9% bəndi artmışdır. Gəlirlərin strukturunda isə 2022-ci ildə şəhər yerlərində ümumi gəlirlərin 46.3%-ni muzdlu işlə əlaqədar əldə edilən gəlirlər təşkil etdiyi halda kənd yerlərində bu göstərici 26.9% olmuşdur. Həmin dövrdə özünüməşğulluqdan gəlirlər şəhər yerində 24.5% təşkil etdiyi halda isə bu göstərici kənd yerlərində 43.8% təşkil etmişdir ki, onun da 50.4%-i kənd təsərrüfatı fəaliyyətindən olmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan və başqa fəaliyyət sahələri olmayan ailələrdə isə bu göstərici daha da aşağıdır ki, bu da əhalinin yaşayış səviyyəsinə və alıcılıq qabiliyyətinə mənfi təsir edir. Nəticədə kənd yerlərinin inkişafı müasir dövrün tələblərindən geridə qalır. Yəni, kənd yerlərində əhalinin gəlirlərinin aşağı olması kəndin inkişafına birbaşa təsir etməkdədir. Məsələn, Türkiyə Respublikasında kənd yerlərinin

davamlı dəstək mexanizmlərinin olmaması səbəbindən kənd əhalisinin gəlirləri şəhər əhalisinin gəlirlərindən aşağı səviyyədə qalmaqda davam edir ki, nəticədə kəndlər son illərdə sürətlə boşalmağa başlamışdır. Bizim 2023-cü ildə Türkiyə Respublikasının İzmir və Manisa şəhərlərində keçirdiyimiz görüşlər, Manisa İL Tarım və Orman Müdirliyində apardığımız müzakirələrdə də bu, qarşı tərəfdən xüsusi olaraq vurğulanmışdır. Azərbaycanda da bu kimi tendensiyalar mövcuddur, lakin Türkiyə Respublikasından fərqli olaraq, Azərbaycan sənayesinin zəif inkişafı və kənd əhalisinin xarici ölkələrə miqrasiya meylinin artmasıdır. Daxili urbanizasiya da, demək olar ki, doymuş hala gəlmişdir, bu da əlavə problemlər yaratmaqdadır.

Azərbaycanın kənd təsərrüfatı və kəndin inkişafının islahatlardan sonrakı mərhələsi aşağıdakı xüsusiyyətlərin müəyyən edilməsinə imkan vermişdir:

- kənd təsərrüfatı və kənd iqtisadiyyatının dünya iqtisadiyyatı ilə daha çox inteqrasiyaya meyilli olduğu müəyyənləşir;
- kənd təsərrüfatı ilə kənd iqtisadiyyatı və milli iqtisadiyyat arasında əlaqə getdikcə daha da yaxınlaşır;
- kənd təsərrüfatının inkişafı ilə bağlı məhdudiyyətlər, keçmişdə mövcud olan resurs məhdudiyyətlərindən resurs, tələb və ekoloji məhdudiyyətlərə doğru dəyişmişdir;
- kənd təsərrüfatının və kənd iqtisadiyyatının inkişafına yeni yanaşmalar müəyyənləşməkdədir. İnteqrasiya edilmiş idarəetmənin tempi sürətlənir, qarışıq iqtisadiyyat tendensiyası yaranır;
- innovativ texnologiyaların tətbiqi kənd təsərrüfatının və kənd iqtisadiyyatının inkişafının əsas hərəkətverici qüvvəsinə çevrilmişdir;
- kənd təsərrüfatı və kənd yerlərinin iqtisadi inkişafı üçün maliyyə mənbələri və maliyyə resursları məhdudiyyəti artmışdır;
- kənd təsərrüfatının inkişafı tək istehsalın həcminin artmasının arxasınca getməklə məhdudlaşmır, eyni zamanda məhsula, keyfiyyətə və səmərəliliyə diqqət yetirməyə, kənd təsərrüfatının sənayeləşməsini fəal şəkildə təşviq etməyə, yüksək əmtəə səviyyəsi, yüksək əlavə dəyər, valyuta məzənnəsi ilə sənaye və məhsulların intensiv şəkildə inkişaf etdirilməsi yoluna keçid edir;
- fermerlərin gəlirlərinin artması əsasən kənd təsərrüfatı məhsullarının istehsalının və qiymətlərinin artmasına əsaslanmaqdan strukturun bazara uyğun tənzimlənməsinə və şaxələndirilmiş əməliyyatların inkişafına keçid etməkdədir. Xüsusən də qeyri-kənd təsərrüfatı sahələrinin inkişafı mühüm əhəmiyyət kəsb edərək fermerlərin gəlirlərinin artım mənbəyi kimi formalaşmaqdadır.

Əslində kənd təsərrüfatı dedikdə ilkin yaranan təəssürat kənd haqqında olur və ya əksinə, kənd dedikdə kənd təsərrüfatı olur. Məhz bu baxımdan, kənd yerlərinin inkişaf planları şəhərlərin inkişaf planlarından fərqli olur. Bu isə müasir bazar iqtisadiyyatı şəraitində kənd yerlərinin inkişafının təmin edilməsi üçün kənd əhalisinin maddi-rifah halının nisbi xarakterini müəyyən edən göstəriciyə diqqət yetirilməsini tələb edir. Nisbi göstərici olaraq üç əsas amilin davamlı olaraq tənzimlənməsi xüsusi sosial-iqtisadi əhəmiyyətə malik olduğundan bu göstəricilərin inkişafını şərtləndirən digər amillərin aktivləşdirilməsi məqsədəuyğundur:

1) kənddə orta gəlir qrupunun əhəmiyyətli dərəcədə genişləndirilməsi;
2) kənddə rəqəmsal texnologiyaların inkişafına və məlumatların paylaşılmasına diqqət yetirməli;
3) kənd statusunu saxlamaq şərti ilə kəndlərin yeni layihələr vasitəsilə müasirləşdirilməsi.

Kənd əhalisinin gəlirlərinin artması və orta gəlir qrupunun formalaşması kənd yerlərində rəqəmsal texnologiyaların inkişafı ilə qarşılıqlı əlaqədədir. Odur ki, kənd yerlərində rəqəmsal uçurumun aradan qaldırılmasını sürətləndirmək, rəqəmsal kənd quruculuğunun və ümumi rifahın təşviqini əlaqələndirmək üçün kənd təsərrüfatı texnoloji innovasiyalarına və rəqəmsal zəka modellərinə diqqət yetirilməsi, eyni zamanda, göstərici məlumatlarının idarə edilməsini (məlumat mübadiləsi) standartlaşdırmaq üçün müasir texniki vasitələrdən istifadə edilməsi mütləqdir.

***Kənd yerlərinin inkişafına konseptual yanaşma***

Kənd yerlərinin inkişafının təmin edilməsi üçün ilk növbədə, yuxarıda da qeyd etdiyimiz kimi, kəndlərin bir-birindən fərqliliklərini nəzərə alaraq individual yanaşmaya üstünlük verilməlidir.

Dünya təcrübəsində kəndin inkişafına iki modeldə yanaşma var. Bu təcrübədə hansı inkişaf modelinə ehtiyac olduğunun müəyyən edilməsi vacibdir, çünki, kəndin modernləşməsi müəyyən həddi keçərsə urbanizasiyaya gətirib çıxarır və kənd mühitinin yoxa çıxma təhlükəsi yaranır. Bir çox inkişaf etmiş ölkələrdə kənd tipli yerli məkan sistemlərinin inkişafına dövlət dəstəyinin iki konseptual modeli mövcuddur. Birinci modeldə dövlət dəstəyinin şərtləri və mexanizmləri vahid qanunvericilik aktında təsbit olunub. Bu model Avropa İttifaqına, Rusiya Federasiyasına, Kanadaya, Türkiyəyə xasdır. Yəni birinci modeldə kəndin inkişafına mövcud qanunvericilik çərçivəsində dövlət dəstəyi verilir. Bura aiddir: dotasiyalar, subsidiyalar, güzəştli kreditlər, investisiya və s. İkinci modeldə müxtəlif proqramlar mövcuddur ki, onların həyata keçirilməsi bir-birindən asılı olmayaraq baş verə bilər. Bu model ABŞ, Meksika, Yeni Zelandiyaya xasdır. Aİ və ABŞ-ın kənd yerlərinin inkişafı siyasəti bir çox ümumi məqsədlərə malikdir, lakin həyata keçirilməsi mexanizmləri və prioritet istiqamətləri, kənd tipli yerli məkan sistemlərinin inkişafında kənd təsərrüfatı istehsalının rolunun müəyyən edilməsi bir qədər fərqlidir [4].

Kənd təsərrüfatının və kəndlərin inkişafının təmin edilməsində əsas meyarlardan biri davamlı inkişafın təmin edilməsidir və hazırda bu meyar ən təcili kənd təsərrüfatı siyasətlərindən biri hesab olunur. Davamlı inkişafın əsas mənası "gələcək nəsillərin inkişafına təhlükə yaratmayacaq şəkildə indiki ehtiyacların ödənilməsidir". Məhz bu baxımdan son illərdə davamlı inkişaf tədricən hamının diqqətini cəlb edir və onun mənası son dərəcə geniş olduğundan burada üç əsas aspekt-ekoloji, sosial və iqtisadi inkişafı təmin etmək başlıca prioritet məsələ olaraq qarşıya qoyulur. Qeyd etdiyimiz kimi kəndlərdə olan fərqlilik hər bir yaşayış məntəqəsində, hər bir bələdiyyədə əhalinin axınına və məşğulluğun artmasına səbəb ola biləcək ideyalar axtarmağın lazım olduğunu göstərir.

## *Nəticə*

Kənd təsərrüfatının inkişafı və kənd yerlərinin abadlaşması fermerlərin rifahı ilə bağlıdır. Apardığımız müşahidələr, təhlillər göstərir ki, regionlarda olan coğrafi şərait, iqtisadi sistemlər və kənd təsərrüfatının inkişaf səviyyələri fərqli olsa da, inkişaf yolları, demək olar ki, eynidir. Regionlarda kənd təsərrüfatının inkişafının təmin edilməsində ənənəvi kənd təsərrüfatından yararlanmaqla, yeni şərtlərə uyğun olaraq, ilk növbədə fermerlərə müasir kənd təsərrüfatının idarə edilməsi konsepsiyasını yaratmağa istiqamət verilməli, daha sonra mükəmməl yerli şəraitə uyğun bitki sortlarından, heyvan cinclərindən istifadə etməklə becərmə, heyvanlara qulluq və idarəetmə texnologiyalarını tətbiq etməli və eyni zamanda, bu sahədə səmərəli işlərin aparılmasına zəmin yaradılmalıdır.

Regionların inkişafında çoxsahəli strateji siyasətlər baxımından kənd yerlərinin inkişafının üzləşdiyi mühüm məsələlərdən biri aqrar sənaye sahələri üzrə məhsul istehsalının azalması, ucqar kəndlərdə əhali sayının azalması, məhsul istehsalında ətraf mühitə dəyən ziyan və kənd yerlərində sosial narahatlıq kimi cari çətinliklərin mövcudluğu kənd təsərrüfatının inkişafına mənfi təsir edir. Məhz bu baxımdan, ölkədə kənd yerlərinin inkişafı da davamlı inkişafla bağlı problemlərlə üzləşir. Çoxfunksiyalı dəyər və yeni inkişaf paradiqması altında, kənd yerlərinin inkişafının bütün aspektlərinin gözləntilərinə və ehtiyaclarına cavab olaraq dörd əsas inkişaf istiqamətlərini təklif etmək olar: Bura - rəqabət qabiliyyətli yerli iqtisadiyyatın inkişafı, səmərəli istehsal fəaliyyəti üçün əlverişli mühitin yaradılması və yaşayış səviyyəsinin yüksəldilməsi, mədəni irs və bilik innovasiyası, sosial kapital və səmərəli tərəfdaşlıqlar və s. və onların kəndlərin inkişaf planlarında həyata keçirilməsi problemlərinin həll edilməsi daxildir.

Qeyd edək ki, kənd təsərrüfatının rəqabətqabiliyyətliliyini artırmaq üçün məhsul istehsalı prosesində struktur korreksiyasının ilk addımı istehsal xərclərinin azaldılması, kənd təsərrüfatı məhsullarının keyfiyyətinin yüksəldilməsi və bununla da istehsalın xüsusiyyətlərinə əsaslanaraq məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi strategiyalarının hazırlanması tələb olunur. Onu da qeyd edək ki. kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyi təkcə təhlükəsizlik, sağlamlıq və iqtisadi səmərəlilikdə deyil, həm də il ərzində sabit tədarük qabiliyyətinə malik olmasını və qiymətlərin sabit qalmasını da şərtləndirir. Sabit təchizat keyfiyyəti istehsal dövrünün təşkili, məh-

sul yığımından sonrakı dövrdə məhsulların keyfiyyətli saxlanması və soyuq zəncir texnologiyasının təkmilləşdirilməsini tələb edir. Yəni, istehsaldan istehlakçıya qədər bütün hərəkət zənciri boyunca daşınan məhsulların düzgün saxlanmasında zəruri olan sabit temperatur və digər parametrləri təmin etmək üçün logistika tədbirləri görülməlidir. Bu, məhsulların keyfiyyətinin qorunmasına və rəqabət qabiliyyətinin təmin edilməsinə imkan verir. Bundan əlavə, hesab edirik ki, yerli sənaye müəssisələrinin rəqabət qabiliyyətini optimallaşdırmaq üçün kəndli təsərrüfatlarının və kənd yerlərində fəaliyyət göstərən digər etibarlı sahibkarların kiçik miqyaslı kənd təsərrüfatı məhsullarının emalının inkişafına istiqamətləndirilməsi və yerli xüsusi məhsulların sağlamlıq baxımından keyfiyyətinin yüksəldilməsi yerli sənayenin rəqabət qabiliyyətini gücləndirə bilər. Bütün bunlar kənd təsərrüfatının və kənd yerlərinin qarşılıqlı inkişafını təmin edə bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” 179 s.
2. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/news/macroeconomy.php?lang=az&page=2
4. Ibrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı, (Monoqrafiya), Bakı,-2016,- 655 s
5. Quliyev E. A. Aqrar iqtisadiyyat, Ali məktəb tələbələri üçün dərslik. Bakı-2015, “Kooperasiya” nəşriyyatı, 320 s.
6. AB Uzmanları Sevgi DOĞAN ve Selenge Banu AKŞAHİN, Türkiye ve AB’de kırsal kalkınma: bir mevzuat derlemesi, Ankara-2011, 286 s. https://www.tarimorman.gov.tr/ABDGM/Belgeler/AB%20UYUM/Yay%C4%B1nlar%C4%B1m%C4%B1z/K%C4%B1rsal%20Kalk%C4%B1nma%20Kitab%C4%B1.pdf
7. Наумов А.С. Региональное развитие сельского хозяйства в европейских странах и в России в условиях глобальной продовольственной взаимозависимости и дефицита земляных ресурсов // Вестник Российского университета дружбы народов. Серия: Экономика. 2014. № 3. С. 63–74.
8. Иконникова О.В. Основные подходы к определению понятия устойчивое развитие сельских территорий// Проблемы современной экономики.- 2012. – №1(41).- С.349.
9. https://www.eda.admin.ch/deza/it/home/partenariati-commesse/organizzazioni-multilaterali/organizzazioni-onu/ifad.html


***Эльдар Али оглы Гулиев***
***к.э.н, доцент, Аграрный Исследовательский Центр,***
***ведущий специалист,***
***e-mail: eldar.quliyev@atm.gov.az***

## Современное положение и перспективы развития сельского хозяйства и сельского развития

### *Резюме*

**Цель исследования** – развитие сельского хозяйства в современных условиях на основе инновационных технологий, обеспечение социально-экономического развития сельских территорий, применение новых знаний и опыта в направлении применения методологии индивидуального подхода к развитию сельских территорий, заключается в разработке аргументированных предложений и рекомендаций.

**Методика исследования** – в процессе исследования использовались системный подход, методы обобщения и сравнения, анализа и группировки.

**Прикладная значимость исследования** – основные результаты исследования и выдвинутые предложения могут быть использованы при разработке проектов, направленных на обеспечение взаимного развития сельского хозяйства и сельских территорий.

**Результаты исследования** – обеспечение устойчивого развития сельского хозяйства и сельских территорий оценено как основной фактор обеспечения общего экономического роста в стране.

**Оригинальность и научная новизна исследования** – вопросы организации развития сельских территорий в соответствии с требованиями регионального развития, что является одной из основных сфер народного хозяйства и имеет важное значение в повышении уровня жизни населения, изучались впервые.

**Ключевые слова:** сельское хозяйство, сельская местность, экономика, социальная, инфраструктура, развитие, производство.

***Eldar Ali oglu Guliyev,***
***PhD, Associate Professor, Agriculrural Research Center,***
***leading specialist,***
***E-mail: eldar.guliyev@atm.gov.az***

## Current situation and development prospects of agriculture and rural development

***Summary***

**Purpose of the study** – to develop agriculture in modern conditions based on innovative technologies, to ensure socio-economic development of rural areas, to apply new knowledge and experience in the direction of applying the methodology of individual approach to the development of rural areas. and develop recommendations.

**Research methodology** – systematic approach, generalization and comparison, analysis and grouping methods were used in the research process.

**Research application** – the main findings of the research and recommendations can be used in the development of projects aimed at ensuring the mutual development of agriculture and rural areas.

**Research findings** – it has been determined that the primary means of guaranteeing the nation's overall economic growth is to ensure the sustainable development of agriculture and rural areas.

**Research's originality and scientific novelty** – the issues of organizing the development of rural areas in accordance with the requirements of regional development, which is one of the key sectors of the national economy and is important in improving the living standards of the population, were studied for the first time.

**Key words:** agriculture, rural areas, economy, social, infrastructure, development, production.